# İnsan hüquqları: bərabərlik, hörmət, ədalət, azadlıq...

**18 iyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günüdür**



**Hər birimiz yaxşı bilirik ki, inkişaf etmiş sivil cəmiyyətin əsas əlamətini onun məhz qanunlar əsasında idarəolunması təşkil edir. Belə ki, cəmiyyətin üzvü olaraq bizlər, fərdlər arasında ictimai münasibətlər həyatımızın bütün aspektlərini əhatə etdiyindən həmin münasibətlərin hüquqi cəhətdən nizama salınmasına hər zaman ehtiyac var.**

## Bakalavr və magistr pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla bu sahəyə elmi yanaşma nümayiş etdirilir

### İnsan hüquqları haqqında nə bilirik?

Əslində insan hüquqları insanın sadə ehtiyaclarını əks etdirir. İnsan hüquqları bərabərlik, ləyaqət, hörmət, azadlıq və ədalət haqqındadır. Hər bir insan ayrı-seçkiliyə məruz qalmamaq, yaşamaq, söz azadlığı, təhsil almaq və digər hüquqlara malikdir. İnsan hüquqları bütün şəxslər üçün bərabər və daimi , hər bir ölkədəki insanlar üçün eynidir. Yəni hər bir fərdin hansı ölkədə doğulmasından və ya yaşamasından asılı olmayaraq hüquqları eynidir. Onlar ayrılmaz, bölünməz və bir-birinə bağlıdır. Bu, o deməkdir ki, onlar heç vaxt insanlardan alına bilməz. Bütün hüquqlar eyni dərəcədə vacibdir və tamamlayıcıdır.

Bəli, elə insan haqlarının əsas məğzi də ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdır və bu hüquqlar izahata ehtiyac duyulmadan hamıya şamildir. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaşın hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə bağlıdır. Onlar dövlət tərəfindən müdafiə olunur. Konstitusiyalarda əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkarolunmaz bir hüquq kimi qəbul olunmuşdur.

Beynəlxalq aləmdə insan haqları BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi ilə qanuniləşdirilmişdir. İnsan haqları çox hallarda bütün insanların eyni hüquqa malik olması ideyasına uyğun olaraq belə ifadə olunur: “Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir”.

### Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqları ali dəyər kimi

Sevindirici haldır ki, bugünkü inkişafı ilə bölgədə və dünyada söz sahibinə çevrilən Azərbaycanda insan hüquqları sahəsində strateji əhəmiyyətli sənədlərin təsdiqi, bir sıra uğurlu islahatların aparılması insan hüquqlarının müdafiəsi baxımından mühüm təcrübə formalaşdırmasına imkan yaratmışdır.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Dünya Birliyinin tam hüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul etməklə demokratik, hüquqi və dünyavi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. İnsan hüquqları sahəsində ölkəmizdə atılan mühüm addımlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, respublikamızda insan hüquq və azadlıqlarının qorunmasının əsası Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilən müddəalarla qoyulub. Konstitusiyamız insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etmişdir. Konstitusiya ölkədə insan hüquq və azadlıqlarının qorunmasının əsasını təşkil edir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 1998-ci il 22 fevral tarixində “İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman imzalanmış, 1998-ci il 18 iyun tarixli sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiqlənmişdir. Dövlət proqramı əsasında 2002-ci ildə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) institutu təsis edilmişdir.

Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

1992-ci ilin martın 2-dən BMT-nin, 2001-ci ilin yanvarın 25-dən isə Avropa Şurasının üzvü olmuş Azərbaycan çoxlu sayda beynəlxalq müqavilənin iştirakçısıdır ki, bunların da təxminən yarısı insan hüquq və azadlıqları ilə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bu gün insan hüquq və azadlıqlarının Azərbaycan nümunəsi bir çox ölkələr üçün örnəkdir.

Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı (MFP), bu planın məntiqi davamı kimi 27 dekabr 2011-ci il tarixli müvafiq sərəncamla ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı (MFPr) təsdiq edilmişdir.

### Hüquqlarımızı necə müdafiə edə bilərik?

Sual oluna bilər ki, hüquqlarımızı necə müdafiə edə bilərik? Təbii ki, hüquqlarımızı bilmək üçün ilk növbədə hüquq və vəzifələrimizi öyrənməli, bunlarla bağlı müəyyən bilgilərə sahib olmalıyıq. Məhz bütün bunlar nəzərə alınaraq məktəblərimizdə, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan uşaq, yeniyetmə və gənclərimizə tədris olunan fənlər üzrə biliklər verilməklə yanaşı, onlara mütamadi olaraq insan hüquqları barədə də ətraflı məlumatlar verilir, maarifləndirmə işləri aparılır .

### İnsan hüquqları təhsili

Ölkə başçısı İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd edilir. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) tərəfindən həmin əlamətdar gün ərəfəsində mayın 18-dən iyunun 18-dək ölkədə “İnsan hüquqları aylığı” elan edilir. Bununla əlaqədar dövlət və yerli özünüidarə orqanları, elm, təhsil və tibb müəssisələri, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları tərəfindən “İnsan hüquqları aylığı” çərçivəsində insan hüquqlarına həsr olunan silsilə tədbirlər təşkil olunur, müxtəlif media orqanlarında bununla bağlı maarifləndirici yazılar dərc edilir.

Ölkəmizdə insan hüquqları təhsili ilə bağlı müəyyən işlər həyata keçirilib. Belə ki, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü ilə insan hüquqları təhsili istiqamətində “İnsan hüquqları”, habelə “Genderə giriş” fənlərinin müstəqil bir fənn kimi Bakı Dövlət Universiteti səviyyəsində tədrisinə nail olunmuşdur. Adıçəkilən universitetdə “İnsan hüquqları üzrə YUNESKO” kafedrası yaradılmış, bakalavr və magistr pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla bu sahəyə elmi yanaşma nümayiş etdirilir. Həmçinin müvəkkilin ümumi redaktəsi ilə “İnsan hüquqları üzrə mühazirələr toplusu” adlı dərslik də hazırlanaraq nəşr edilmişdir.

### Təhsil müəssisələrində “İnsan hüquqları aylığı”

Artıq neçə illərdir ki, Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində paytaxt Bakının, eləcə də bölgələrimizdəki təhsil müəssisələrində də ölkəmizdə elan olunan “İnsan hüquqları aylığı” ilə əlaqədar silsilə tədbirlər keçirilir. Mayın 18-dən iyunun 18-dək istər məktəblərimizdə, istərsə də ali və orta ixtisas təhsili müəssisələrində insan hüquqlarına dair mühazirə, konfrans, seminar, “dəyirmi masa”, disput və inşa yazı müsabiqələri təşkil edilir.

Aylıq çərçivəsində həmçinin məktəblərdə şagirdlərlə “Hüquqlarımızı bilək”, “İnsan hüquqları”, “İnsan hüquqlarının hüquq bərabərliyi üzərində qurulmuş multikulturalizm dəyərləri”, “İnsan hüquqlarının müdafiəsi” və digər mövzularda söhbətlər aparılır.

Tədbirlərdə ümummilli lider Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli sərəncamı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiq edildiyi diqqətə çatdırılır. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamına əsasən, hər il iyunun 18-nin respublikamızda İnsan Hüquqları Günü kimi qeyd olunduğu vurğulanır.

İnsan hüquqlarına həsr edilmiş müxtəlif mövzular üzrə təşkil olunan hüquqi maarifləndirmə tədbirlərində insan və vətəndaş hüquq ,azadlıqlarının qorunması, ona əməl edilməsi, habelə çatışmazlıqların, pozuntuların aşkarlanması, pozulmuş hüquqların bərpası və qarşısının alınması məsələlərinə toxunulur. Eyni zamanda, insan hüquq və azadlıqlarına həsr olunmuş fotostendlərə, şagirdlərin əl işlərindən ibarət sərgilərə baxış keçirilir, onları maraqlandıran suallar cavablandırılır.

Və artıq bir ənənəyə çevrilən, hər ilin 18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində ölkəmizdə “İnsan hüquqları aylığı”nın elan edilməsinin əsas məqsədi də məhz insan hüquqlarının müdafiəsi və təbliği sahəsində həyata keçirilən fəaliyyəti gücləndirmək, qazanılmış nailiyyətlər barədə ictimaiyyəti məlumatlandırmaq, mövcud problemlərin aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən etmək, habelə əhalinin hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyin yolverilməzliyinin zəruriliyini diqqətə çatdırmaqdır.

Onu da xüsusi vurğulayaq ki, hüquqi dövlət quruculuğu yolunu seçmiş ölkəmizdə həyata keçirilən tədbirlər və islahatlar insanlarda hüquqi inamın formalaşmasına, əhali arasında hüquq mədəniyyətinin yayılmasına və bu istiqamətdə bir sıra uğurlu nəticələrin əldə olunmasına öz layiqli töhfəsini verməkdədir.

Bəli, bu gün bizlər öz hüquq və vəzifələrimizi daha yaxşı öyrənməkdə maraqlıyıq.

**Samirə KƏRİMOVA**